# Baş nazir Əli Əsədov Minskdə "Belagro 2024" sərgisi ilə tanış olub



İyunun 3-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarusa işgüzar səfəri çərçivəsində Minskdə "Belagro 2024" Beynəlxalq ixtisaslaşdırılmış sərgini ziyarət edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov və Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin hökumət başçıları geniş çeşidli aqrosənaye məhsullarının, kənd təsərrüfatı texnikası və avadanlıqlarının müasir nümunələrinin, bitkiçilik, heyvandarlıq və quşçuluğun inkişafında qabaqcıl istiqamətlərin nümayiş etdirildiyi sərgi ilə tanış olublar.

Azərbaycan.- 2024.- 4 iyun, № 116.- S.3.